**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

07.06.2023-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Texnologiya və innovasiyalar" işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal İnnovasiya İndeksi*** | | | | | | | |
| 1. | **3.1.1 İKT-yə əlçatanlıq** | 67-ci yer, 86,2 bal | İKT-yə əlçatanlıq aşağıdakı dörd göstəricini (hər biri 25%) birgə əks etdirən indeksdir:<br>1) mobil şəbəkədən istifadə edən əhalinin ümumi əhaliyə faiz nisbəti (ən azı 3G, ən azı LTE/WiMax);<br>2) hər 100 nəfərə düşən mobil telefon abunəçilərinin sayı;<br>3) hər internet istifadəçisinə düşən beynəlxalq internet sürətinin genişliyi (bit/s);<br>4) internetə çıxışı olan ev təsərrüfatlarının xüsusi çəkisi (%-lə). | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | Yeni salınan yaşayış massivlərinin və yeni tikilən binaların telekommunikasiya, o cümlədən stasionar genişzolaqlı internet xidmətləri ilə daha geniş əhatə olunması ilə bağlı tədbirlərin görülməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Əlyar Təmirov, Elvin Məmmədov |
| 2. | **3.1.2 İKT-dən istifadə** | 72-ci yer, 60,7 bal | İKT-dən istifadə aşağıdakı dörd göstəricini (hər biri 25%) birgə əks etdirən indeksdir:<br>1) internetdən istifadə edən şəxslərin faizi;<br>2) 100 nəfər arasında sabit (kabel) internet abunəçilərinin sayı; | **1.** Mobil operatorların mobil şəbəkələrin və xidmətlərin əhatə dairəsinin artırılmasına, həmçinin xidmət keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin görülməsinə təşviq edilməsi | İl ərzində | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 3) 100 nəfər arasında aktiv mobil şəbəkə abunəçilərinin sayı;<br>4) 100 nəfər arasında sürətli mobil internet istifadəçilərinin sayı. | **2.** Telekommunikasiya şəbəkəsinin müasir texnologiyalar əsasında qurulması məqsədilə yüksək sürətli GPON texnologiyasının tətbiqinin genişləndirilməsi, eləcə də sabit genişzolaqlı xidmətlərin (simsiz, GPON, fiber-optik xətt və s.) əhatə dairəsinin artırılması | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Əlyar Təmirov, Elvin Məmmədov |
| 3. | **3.1.3 Hökumətin onlayn xidmətləri** | 65-ci yer, 70,6 bal | “E-hökumətin İnkişafı İndeksi”nin “Onlayn xidmətlər” komponenti hökumətlər tərəfindən dövlət xidmətlərinin milli səviyyədə əhaliyə təqdim edilməsində İKT-dən istifadəni ölçən mürəkkəb indikatordur. | **1.** Vahid elektron hökumət portalının yaradılması və portalda “e-iştirak” funksiyasının formalaşdırılması | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Elnur Məmmədli |
| | | | | **2.** Vahid Giriş Sisteminin (ASAN login) 2-ci versiyasının hazırlanması | | | |
| | | | | **3.** Vahid rəqəmsal hökumət portalında istifadəçi təcrübəsinin (UX-User Experience) keyfiyyətinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin görülməsi | | | |
| 4. | **3.1.4 Elektron iştirak (onlayn məlumat mübadiləsi)** | 73-cü yer, 69 bal | E-İştirak İndeksi (E-Participation Index- EPI) Birləşmiş Millətlər Təşkilatının “Elektron Hökumət Sorğusu”na əlavə indeks kimi daxil edilmişdir. O, vətəndaşlara məlumatın təmin edilməsində (“e-informasiya mübadiləsi”), maraqlı tərəflərlə qarşılıqlı əlaqədə (“e-məsləhətləşmə”) və qərar qəbuletmə proseslərində (“e-qərar qəbuletmə”) dövlətin onlayn xidmətlərdən istifadəsinə diqqət yetirməklə sorğunun əhatə dairəsini genişləndirir. | **1.** Vahid elektron hökumət portalının yaradılması çərçivəsində vətəndaşlarla birbaşa əlaqə kanallarının hazırlanması (dövlət xidmətlərinin göstərilməsində vətəndaşlar tərəfindən verilən rəylərin toplanılması, həmçinin elektron qərarqəbuletmə prosesinin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi) | | | |
| | | | | **2.** “Rəqəmsal İcra Hakimiyyəti” portalının “e-iştirakçılıq” modulunun təkmilləşdirilməsi (portalın “e-iştirakçılıq” modulunun istifadəçi interfeysinin istifadə rahatlığının təmin edilməsi və dizaynının optimallaşdırılması) | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 5. | **5.2.1 Universitet-sənaye tədqiqat əməkdaşlığı** | 23-cü yer, 59,8 bal | Bu göstərici sənaye müəssisələrinin və universitetlərin “Tədqiqat və İnkişaf”la bağlı əməkdaşlığını qiymətləndirir. | **1.** Universitet-sənaye tədqiqat əməkdaşlığı üzrə konsepsiya sənədinin hazırlanması və işçi qrupda müzakirə edilməklə Komissiyaya təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA) | Ayaz Abuşov |
| | | | | **2.** Sənaye müəssisələri ilə birgə təhsil proqramlarının (kurikulumların) hazırlanması | | | |
| | | | | **3.** Universitet-sənaye və elmi-tədqiqat institutları əməkdaşlığının genişləndirilməsi istiqamətində stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi | Mütəmadi | | |
| | | | | **4.** Ali təhsil müəssisələri və elmi-tədqiqat institutları arasında birgə sənaye əsaslı magistr proqramlarının hazırlanması | 01.11.2023 | | |
| | | | | **5.** Universitetlərdə yeni texnoloji laboratoriyalarda istehsal xidmətinin təşkili və tələbələrin bu xidmətə cəlb edilməsi üçün zəruri tədbirlərin görülməsi | 01.12.2023 | | |
| | | | | **6.** Universitetlərdə innovasiya ekosisteminin qurulması üzrə dəstək tədbirlərinin həyata keçirilməsi | Mütəmadi | | |
| | | | | **7.** Universitetlərdə startapların dəstəklənməsi üzrə mentorların hazırlanması | | | |
| 6. | **5.2.3 Xaricdən maliyyələşdiri-lən elmi tədqiqatlar** | 97-ci yer, 0 bal | Bu göstərici xaricdən maliyyələşdiri-lən elmi-tədqiqat və inkişaf işlərinə ümumi xərclərin ÜDM-də payını özündə ehtiva edir (milyardlarla, milli valyutada). | **1.** Tədqiqatçıların beynəlxalq və Avropa tədqiqat proqramlarında iştirakı üzrə fəaliyyətinin genişləndirilməsi və təşkilati məsələlərin həlli | Mütəmadi | Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dövlət Statistika Komitəsi | Hüseyn Hüseynov, Ayaz Abuşov |
| | | | | **2.** “Qlobal İnnovasiya İndeksi”nin 5.2.3-cü alt-indikatorunda Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılması, hesabatdakı göstəricilərin faktiki vəziyyət əsasında müqayisəli qiymətləndirilməsi və göstəricilərin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanaraq aparılmış araşdırma və qiymətləndirmənin nəticələrini özündə əks etdirən hesabatla birlikdə Komissiyaya təqdim edilməsi | 01.11.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **3.** Qeyd olunan alt-indikator üzrə real statistik məlumatların beynəlxalq reytinq təşkilatlarına çatdırılması və həmin təşkilatların informasiya ehtiyatlarında müvafiq dəyişikliklərin edilməsinin nəzarətdə saxlanılması | 01.12.2023 | | |
| 7. | **5.2.4 Birgə müəssisə, strateji ittifaq sövdələşmələri** | 115-ci yer, 0 bal | Bu göstərici birgə müəssisə/strateji ittifaq sövdələşmələrinin sayını göstərir (son 3 ilin göstəriciləri). | **1.** Dövlət müəssisələrinə birgə müəssisə/strateji ittifaq sövdələşmələrinin sayı barədə sorğuların ünvanlanması və müvafiq məlumatların (son 3 ilin göstəricilərinin) toplanması | Mütəmadi | İqtisadiyyat Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi | Arzu Hüseynova |
| | | | | **2.** İnnovasiya və vençur fəaliyyətinin tənzimlənməsi üzrə qanunvericilik bazasının hazırlanması və müvafiq layihələrin işçi qrupda müzakirə edilməklə Komissiyaya təqdim edilməsi | 01.08.2023 | | |
| | | | | **3.** Azərbaycanda mövcud strateji ittifaqlar üzrə məlumatların yayımlanması | Mütəmadi | | |
| | | | | **4.** Refinitiv (https://www.refinitiv.com) bazasında olan transmilli şirkətlərin sövdələşmələri və texnoloji yenilikləri barədə məlumatların yayımlanması | | | |
| 8. | **5.2.5 Patent ailələri** | 66-cı yer, 0,1 bal | Bu göstərici ən azı iki fərqli IP (Intellectual Property-İntellektual (əqli) mülkiyyət) ofisində rezidentlər tərəfindən edilmiş patent ailələri müraciətlərinin AQP-yə (Alıcılıq Qabiliyyəti Paritetinə) əsaslanan hər milyard dollar ÜDM-ə düşən sayını müəyyən edir. | Tətbiqi nəzərdə tutulmuş əsas prioritet ixtiraların müəyyənləşdirilməsi | 01.08.2023 | Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi | Rəcəf Orucov, Rüstəm Ağayev |
| 9. | **5.3.1 Əqli mülkiyyət ödənişləri** | 122-ci yer, 0 bal | Bu göstərici ümumi ticarətin bir hissəsi kimi əqli mülkiyyətdən istifadəyə görə son 3 ildə edilən ödənişlərə əsasən müəyyən edilir. | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən rüblük əsasda təqdim olunan rezidentlərin əqli mülkiyyətdən istifadəyə görə etdikləri ödənişlərlə bağlı məlumatların Mərkəzi Bankın tərtib etdiyi tədiyyə balansının “Royalti və lisenziya xidmətləri” maddəsində əks olunması və qeyd edilən məlumatların beynəlxalq təşkilatlara təqdim olunması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Mərkəzi Bank | Əsədəli İbrahimzadə |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 10. | **5.3.2 Yüksək texnologiyalı məhsul idxalı** | 104-cü yer, 6,3 bal | Bu göstərici yüksək texnologiyalı məhsulların idxalının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən olunur. | **1.** Yüksək texnologiyalı malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodlarının müəyyənləşdirilməsi<br>**2.** Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsinin müvafiq bölməsində yüksək texnologiyalı malların idxalı haqqında statistik məlumatın mütəmadi olaraq təqdim olunması | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi | Fuad Aslanov |
| 11. | **5.3.3 İKT xidmətlərinin idxalı** | 108-ci yer, 0,6 bal | Bu göstərici telekommunikasiya, kompüter və informasiya xidmətlərinin idxalının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | **1.** Nazirlər Kabinetinin 18.02.2023-cü il tarixli 55 nömrəli Qərarına əsasən idxal gömrük rüsumlarından azad edilmiş hesablayıcı maşınların, giriş-çıxış və yaddaş qurğularının, eləcə də monitorların və elektron inteqral sxemlərin idxalının təşviq edilməsi<br>**2.** İdxal zamanı texnologiyalar parklarının rezidentləri üçün tətbiq edilən müvafiq güzəştlərlə bağlı maarifləndirmə tədbirlərinin görülməsi<br>**3.** Banklar tərəfindən təqdim olunan məlumatlar əsasında İKT xidmət növünün Mərkəzi Bank tərəfindən tərtib olunan tədiyyə balansı hesabatında əks olunması və müvafiq məlumatların beynəlxalq təşkilatlara təqdim olunması | Mütəmadi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mərkəzi Bank | İmran Məmmədov, Əsədəli İbrahimzadə |
| 12. | **6.1.1 Rezidentlərin patent müraciətləri** | 71-ci yer, 0,7 bal | Bu göstərici yerli və ya regional patent ofisinə edilmiş rezident patent müraciətlərinin sayı əsasında müəyyən edilir. | Əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması və təşviq edilməsi istiqamətində zəruri tədbirlərin görülməsi | Mütəmadi | | |
| 13. | **6.1.2 Rezidentlərin PCT (Patent Cooperation Treaty- Patent Əməkdaşlığı Müqaviləsi) patent müraciətləri** | 91-ci yer, 0 bal | Bu göstərici Patent Əməkdaşlığı Müqaviləsi üzrə müraciətlərin sayına əsasən müəyyən edilir. | İxtira fəallığının stimullaşdırılması və mövcud stimullaşdırıcı mexanizmlərin təşviq edilməsi | 01.11.2023 | Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi | Rəcəf Orucov, Rüstəm Ağayev |
| 14. | **6.1.3 Rezident faydalı model müraciətləri** | 49-cu yer, 0.2 bal | Bu göstərici rezidentlərin yerli patent ofisinə etdikləri faydalı model üzrə müraciətlərinin sayı əsasında müəyyən edilir (milyard dollarla). | Müvafiq göstərici üzrə statistik məlumatların Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) təqdim edilməsi | 01.09.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 15. | **6.1.4 Elmi və texniki məqalələr** | 113-cü yer, 5,3 bal | Bu göstərici elmi və texniki jurnal məqalələrinin sayı əsasında müəyyən edilir. | **1.** Beynəlxalq layihələr çərçivəsində həmmüəllif məqalələrinə diqqətin artırılması və onların təşviqi | Mütəmadi | Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | Hüseyn Hüseynov |
| | | | | **2.** Elmi məqalələrin beynəlxalq standartlara uyğun hazırlanması üzrə təlimlərin təşkili | | | |
| | | | | **3.** Nüfuzlu xarici alim və diaspor nümayəndələri ilə müvafiq əməkdaşlığın genişləndirilməsi | | | |
| 16. | **6.1.5 İstinad oluna bilən sənədlər, "H- indeksi"** | 93-cü yer, 5,3 bal | "H" indeksi ən az "H" dəfə sitat gətirilmiş məqalələrin sayını (H) göstərir. | "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2023-cü il üzrə Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin icrasının təmin edilməsi | 01.12.2023 | | Nicat Məmmədli |
| 17. | **6.2.1 Əmək məhsuldarlığının artımı** | 82-ci yer, 0,3 bal | Bu göstərici məşğul şəxs başına düşən ÜDM-in artım tempini göstərir (5 illik orta faiz göstəricisi). | **1.** "Əmək məhsuldarlığının qiymətləndirilməsinə dair metodoloji tövsiyələr" sənəd layihəsinin hazırlanması və təsdiqi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi | Arzu Hüseynova, Çimnaz Əliyeva |
| | | | | **2.** İqtisadiyyatın real sektoru üzrə peşə hazırlığı kurslarının əhatə dairəsinin genişləndirilməsi və peşə hazırlığı və təlimlərinə cəlb edilən şəxslərin sayının artırılması | Mütəmadi | | |
| 18. | **6.2.3 Proqram təminatı xərclərinin ÜDM-də payı** | 96-cı yer, 0,1 bal | Kompüter proqram xərcləri alınmış, yaxud icarəyə götürülmüş ümumi əməliyyat sistemlərinin, verilənlər bazası sistemlərinin, proqramlaşdırma alətlərinin, xidməti proqramların və tətbiqetmələrin ümumi dəyərini ifadə edir. | **1.** Startapların kompüter proqram təminatlarını öz iş proseslərinə inteqrasiya etməsi məqsədilə proqramlaşdırma üçün kodlaşdırma savadı tələb etməyən "No-code" platformaları, eyni zamanda peşəkar proqramlaşdırma alətlərinin istifadəsi üsulları, məlumatların təhlükəsiz formada saxlanılması üçün müxtəlif bulud xidmətləri, məlumat bazalarının yaradılması və məlumat mübadiləsinin təmin olunması üçün proqram təminatlarının istifadə olunmasının üstünlükləri, təhlükəsizliyin təmin olunması məqsədilə lisenziyalı əməliyyat sistemlərindən istifadə prosesi və işləmə prinsiplərini əhatə edən təlimlərin təşkili üzrə dəstəyin göstərilməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, VXSİDA | Yevgeniya Bikmurzina |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **2.** Korporativ təşkilatlar daxilində innovativ səlahiyyətlərin artırılması, çevik transformasiyaya töhfə verilməsi, əməliyyat fəaliyyəti üçün müasir proqram təminatından istifadə edilməsi üzrə təlimlərin təşkili<br>**3.** Startap məhsullarının sınaqdan keçirilməsi üçün müasir proqram təminatı ilə təchiz edilmiş yeni AR-GE (Tədqiqat və İnkişaf) laboratoriyalarının açılması<br>**4.** Dövlət qurumlarının “Microsoft” lisenziyaları ilə təmin olunması | | | |
| 19. | **6.2.4 ISO 9001 keyfiyyət sertifikatları** | 86-cı yer, 1,8 bal | Bu göstərici əldə olunan ISO 9001 Keyfiyyəti İdarəetmə Sistemləri sertifikatlarının sayını əks etdirir (milyard dollarla). | **1.** Azərbaycan Standartlaşdırma İnstitutunun müvafiq sahədə fəaliyyətinin genişləndirilməsi<br>**2.** ISO 9001 standartının tətbiqinin genişləndirilməsi istiqamətində maarifləndirmə işlərinin aparılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova, Eldəniz Zeynalov |
| 20. | **6.2.5 Yüksək texnologiyalı məhsul istehsalı** | 84-cü yer, 11,4 bal | Bu göstərici yüksək texnologiyalı və orta yüksək texnologiyalı məhsul istehsalınının ümumi istehsalda olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | Mövcud innovasiya layihələri çərçivəsində və İKT sahəsində cəlb olunacaq yeni layihələr vasitəsilə məhsul artımının təşviq edilməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Amil Vəliyev |
| 21. | **6.3.1 Əqli mülkiyyətdən daxilolmalar** | 113-cü yer, 0 bal | Bu göstərici son 3 ilin və ya əldə edilməsi mümkün olan göstəricilərin ortalamasına əsasən hesablanır. | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən rüblük əsasda təqdim olunan qeyri-rezidentlərdən əqli mülkiyyətdən istifadə üzrə daxilolmalarla bağlı məlumatların Mərkəzi Bankın tərtib etdiyi tədiyyə balansının “Royalti və lisenziya xidmətləri” maddəsində əks olunması və müvafiq məlumatların beynəlxalq təşkilatlara təqdim olunması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Mərkəzi Bank | Əsədəli İbrahimzadə |
| 22. | **6.3.2 İstehsal və ixracın mürəkkəbliyi** | 114-cü yer, 13,7 bal | “İqtisadi Mürəkkəblik İndeksi” ölkələrin ixrac səbətinin müxtəlifliyinə və mürəkkəbliyinə əsaslanan göstəricidir. | **1.** Azərbaycanda yeni diversifikasiya üçün yüksək potensiala malik sektorların müəyyən edilməsi<br>**2.** Mürəkkəblik indeksi yüksək ola biləcək məhsulların ixracının təşviq edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 23. | **6.3.3 Yüksək texnologiyalı məhsul ixracı** | 106-cı yer, 0,2 bal | Bu göstərici yüksək texnologiyalı məhsulların ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən olunur. | **1.** “Made in Azerbaijan” brendi ilə innovativ və yüksək texnoloji məhsulların istehsalının artırılması və göstərilən xidmətlərin genişləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | Amil Vəliyev |
| | | | | **2.** Yüksək texnologiya parklarının rezidentləri tərəfindən istehsal edilən məhsulların ixrac həcminin artırılması istiqamətində zəruri tədbirlərin görülməsi | | | |
| 24. | **6.3.4 İKT xidmətlərinin ixracı** | 106-cı yer, 0,4 bal | Bu göstərici telekommunikasiya, kompüter və informasiya xidmətlərinin ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | **1.** Banklar tərəfindən təqdim olunan məlumatlar əsasında qeyd olunan xidmət növünün Mərkəzi Bank tərəfindən tərtib olunan tədiyyə balansı hesabatında əks olunması və müvafiq məlumatların beynəlxalq təşkilatlara təqdim olunması | Mütəmadi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank | Əsədəli İbrahimzadə, Amil Vəliyev |
| | | | | **2.** İKT xidmətlərinin ixracının artırılması, o cümlədən müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsi, yeni texnologiyaların işlənməsi üzrə müasir komplekslərin qurulması, investisiya mühitinin cəlbediciliyinin artırılması, ölkənin ixrac qabiliyyətinin genişləndirilməsi, innovativ məşğulluq ənənəsinin yaradılması məqsədilə mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2023 | | |
| | | | | **3.** Təkmilləşdirilməsi nəzərdə tutulan müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq, İKT xidmətlərinin ixracının artırılması istiqamətində zəruri tədbirlərin görülməsi | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 25. | **7.1.1 Qeyri-maddi aktivlərin intensivliyi** | m/y | Bu göstərici qeyri-maddi aktivlərin dəyərinin müəssisələrin ümumi dəyərinə faiz nisbəti əsasında müəyyən edilir ( ümumi dəyəri yüksək olan 15 müəssisənin ortalaması). | “Qlobal İnnovasiya İndeksi”nin 7.1.1-ci alt-indikatorunda Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılması və qeyd olunan göstəricilərin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova |
| 26. | **7.1.2 Rezidentlərin əmtəə nişanlarına müraciətləri** | 80-ci yer, 27,1 bal | Bu göstərici milli və ya regional ofisdə rezidentlər tərəfindən edilmiş ticarət nişanı üzrə müraciətlərin aid olduğu mal və xidmət siniflərinin sayı ilə müəyyən edilir (milyard dollarla). | Əqli mülkiyyət sahəsində innovativ inkişafa dair kursların və təlimlərin təşkil edilməsi | Mütəmadi | Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi | Rəcəf Orucov, Rüstəm Ağayev |
| 27. | **7.1.3 Qlobal marka dəyəri** | m/y | Bu göstərici ən yaxşı 5000 brendin qlobal brend dəyərinin müəyyənləş-dirilməsinə əsaslanır (ÜDM-in faizi kimi). | **1.** Ümumi Daxili Məhsulda yüksək payı olan 25 şirkətin brend dəyərinin araşdırılması<br>**2.** Aparılmış təhlil nəticəsində qeyd edilən brendlərin qiymətləndirilməsi və ölkədaxili reytinqinin müəyyən olunması<br>**3.** Brend dəyərlərinə dair ölkə üzrə hesabatın hazırlanması<br>**4.** Azərbaycana məxsus brendlər haqqında məlumatların vahid verilənlər bazasına daxil edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova |
| 28. | **7.1.4 Rezidentlərin sənaye nümunələri ilə bağlı müraciətləri** | 103-cü yer, 0,2 bal | Bu göstərici rezidentlərin milli və ya regional ofisə təqdim etdikləri sənaye nümunələri ilə bağlı müraciətlərində olan nümunələrin sayı əsasında müəyyən olunur (milyard dollarla). | Müvafiq indikator üzrə əqli mülkiyyət barədə real statistik məlumatların beynəlxalq reytinq təşkilatlarına çatdırılması | 01.08.2023 | Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi | Rəcəf Orucov, Rüstəm Ağayev |
| 29. | **7.2.1 Mədəniyyət və yaradıcılıq xidmətlərinin ixracı** | 86-cı yer, 0,1 bal | Bu göstərici mədəniyyət və yaradıcılıq xidmətlərinin ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | **1.** Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılması, hesabatdakı göstəricilərin mövcud vəziyyət əsasında müqayisəli qiymətləndirilməsi və qeyd olunan göstəricilərin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanaraq aparılmış araşdırma və qiymətləndirmənin nəticələrini özündə əks etdirən hesabatla birlikdə Komissiyaya təqdim edilməsi | 01.12.2023 | Mədəniyyət Nazirliyi | Bəhram Cəfərli |
| 30. | **7.2.2 Milli bədii filmlər** | 67-ci yer, 0,5 bal | Bu göstərici ölkədə istehsal olunmuş milli bədii filmlərin sayını əks etdirir. Bu indikator 15-69 yaş arasında olan hər 1 milyon nəfər əhaliyə düşən milli bədii filmlərin sayını göstərir. | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 31. | **7.2.3 Əyləncə və media bazarı** | m/y | Bu göstərici qlobal əyləncə və media bazarını əks etdirir. Bu indikator 15-69 yaş aralığında olan hər 1000 nəfər əhali üzrə hesablanır. | **2.** Qeyd olunan indikatorlar üzrə real statistik məlumatların beynəlxalq reytinq təşkilatlarına çatdırılması və beynəlxalq reytinq təşkilatlarının informasiya ehtiyatlarında müvafiq dəyişikliklərin edilməsinin nəzarətdə saxlanılması<br>**3.** Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupu ilə əməkdaşlığın genişləndirilməsi və ölkədəki mövcud göstərici və ya qanunvericilik tələbi barədə dəqiq məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | | | |
| 32. | **7.2.4 Çap mətbuatı və digər media** | 63-cü yer, 0,8 bal | Bu göstərici çap nəşrləri və digər media məhsullarınının ümumi istehsalda olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | | | | |
| 33. | **7.2.5 Kreativ məhsulların ixracı** | 95-ci yer, 0,1 bal | Bu göstərici kreativ məhsulların ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | | | | |
| 34. | **7.3.1 Yüksək səviyyəli ümumi domenlər** | 96-cı yer, 0,9 bal | Bu göstərici yüksək səviyyəli ümumi domenlərin (TLD-Top Level Domain) sayına əsasən müəyyən edilir. Bu indikator 15-69 yaş aralığında olan hər 1000 nəfər əhaliyə düşən ümumi domenlərin sayını göstərir. | **1.** Rəqəmsal transformasiya və rəqəmsallaşmanın təmin edilməsi vasitəsilə elektron resursların, habelə yüksək səviyyəli ümumi domenlərin sayının artırılmasının stimullaşdırılması və təşviq edilməsi<br>**2.** Yüksək səviyyəli domenlərin alınması, onların qeydiyyatı və kibertəhlükəsiz-liyinin təmin edilməsi istiqamətində maarifləndirmə və məlumatlandırma tədbirlərinin həyata keçirilməsi ilə yüksək səviyyəli belə domenlərin ümumi sayının artırılmasının təşviq olunması | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Amil Vəliyev, Samir Rəsulov |
| 35. | **7.3.2 Ölkə kodlu yüksək səviyyəli domenlər** | 76-cı yer, 1,5 bal | Bu göstərici ölkə kodlu yüksək səviyyəli domenlərin (TLD-Top Level Domain) sayına əsasən müəyyən edilir. Bu indikator 15-69 yaş aralığında olan hər 1000 nəfər əhaliyə düşən milli domenlərin sayını göstərir. | **1.** Mikro, kiçik və orta biznes subyektlərinin qeydiyyatı/uçotu zamanı “.az” domen zonasında domen adının alınması zərurəti ilə bağlı hüquqi əsasların yaradılması<br>**2.** Mikro, kiçik və orta biznes subyektlərinin müraciətləri əsasında “.az” domen zonasında domen adının qeydiyyatı ilə bağlı ödənişlərə kampaniya şəklində güzəştlərin tətbiqi üzrə zəruri tədbirlərin görülməsi | | | Kamal Məmmədov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **3.** “.az” ölkə kodlu yüksək səviyyəli domen adlarının sayının artırılması üçün domen adı almaq istəyən biznes subyektlərinin rəqəmsal bacarıqlarının artırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi | | | |
| 36. | **7.3.3 Qəbul olunan GitHub öhdəliyi** | 87-ci yer, 1,9 bal | Bu göstərici GitHub-dan mənbə kodunun əldə olunmasını ehtiva edir. Bu indikator 15-69 yaş aralığında olan hər 1 milyon nəfər əhali üzrə hesablanır. | Hər 1 milyon əhaliyə düşən GitHub abunəçilərinin sayının artırılması istiqamətində proqram tərtibatı üzrə təlimlərin keçirilməsi və GitHub platformasından istifadəyə dair maarifləndirmə işinin aparılmasının “Technest” təqaüd proqramı çərçivəsində icrası üzrə zəruri tədbirlərin görülməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, VXSİDA | Fatimə Ələkbərova |
| 37. | **7.3.4 Mobil proqramların yaradılması** | 94-cü yer, 0,1 bal | Mobil tətbiqlərin beynəlxalq miqyasda yüklənməsi dedikdə 2 il ərzində hər bir ölkədə “Google Play Store” və “iOS App Store”dan əldə olunan məlumatlar, o cümlədən endirilən mobil tətbiqlər nəzərdə tutulur. | **1.** Startaplarla əlaqəli mobil tətbiq proqramlarının sayının artırılması və müvafiq startap məhsullarının bazara çıxarılması məqsədilə akselerasiya proqramlarının həyata keçirilməsi | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, VXSİDA | Amil Vəliyev |
| | | | | **2.** Korporativ əməkdaşlıq çərçivəsində şirkətlər tərəfindən həyata keçirilən inkubasiya və akselerasiya tədbirlərinə və hakatonlara dövlət dəstəyinin göstərilməsi | | | |
| | | | | **3.** Universitetlərdə keçirilən inkubasiya və akselerasiya proqramlarına, həmçinin innovasiya sahəsində təhsil alan tələbələrə dövlət dəstəyinin (mentorlarla əlaqələndirmə, sahibkarlıq proqramları haqqında məlumatlandırma, maliyyə dəstəyi və s.) göstərilməsi | | | |